AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 14/4

Bakı şəhəri 20 dekabr 2017-ci il

Azıx mağarasından azıxantropun sümüyünün tapılmasının 50 illiyinə həsr olunmuş "Qafqaz erkən paleolit dövründə insanların miqrasiya yolunda" beynəlxalq simpoziumun keçirilməsi haqqında

1968-ci ildə arxeoloq Məmmədəli Hüseynov tərəfindən Azıx mağarasından azıxantropun alt çənə sümüyünün qalığının aşkar olunmasından 50 il keçir. Tədqiqatlar nəticəsində Azıxantropun 400 min il yaşı olduğu təsdiqlənmiş və elmi dövriyyəyə daxil edilən Quruçay mədəniyyəti elmdə özünün layiqli yerini tutmuşdur. Son illər Böyük Qafqazın cənub ətəklərində yerləşən Mingəçevir və Qəbələ rayonları ərazisindən əldə edilmiş artefaktlar Quruçay mədəniyyətinin yayılma arealının çox geniş olduğunu təsdiq etmiş və onun tədqiqinin müasir dövrdə də aktual olduğunu şərtləndirmişdir. Son illər Qarabağda və xüsusi olaraq Azıx mağarasında ermənilərin qeyri-qanuni yolla "tədqiqatlar" aparması bir daha bu paleolit düşərgəsinin və oradan əldə olunmuş artefaktların elmi təhlilinin və geniş elmi ictimaiyyətə çatdırılmasının zəruri olduğunu göstərir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. 5-7 noyabr 2018-ci il tarixlərində AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda Azıx mağarasından Azıxantropun sümüyünün tapılmasının 50 illiyinə həsr olunmuş "Qafqaz erkən paleolit dövründə insanların miqrasiya yolunda" mövzusunda beynəlxalq simpozium keçirilsin.
2. AMEA Rəyasət Heyəti aparatının Hüquq və kadrlar idarəsi (hüquq üzrə fəlsəfə doktoru Rasim Ağasiyev), Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsi (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) bu qərardan irəli gələn məsələləri həll etsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə tapşırılsın.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT